

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 193 (21.094)

*10 oktyabr 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan şəhərində kompleks quruculuq işləri aparılır





Şəhərsalma prinsiplərinə uyğun qurulan qədim Naxçıvan bu gün tarixilik, millilik və müasirliyin vəhdətində daha füsunkar görünür. Muxtar respublika paytaxtında hər il yeni yaşayış binaları tikilir, park və xiyabanlar salınır, şəhər infrastrukturu tamamilə yeniləşdirilir. “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”ın da bu baxımdan mühüm əhəmiyyəti var. Proqrama əsasən, bu il şəhərin Əliabad qəsəbəsində kompleks quruculuq tədbirləri həyata keçirilmişdir.

Oktyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Əliabad qəsəbəsinə gəlmiş, aparılan quruculuq işləri ilə maraqlanmışdır.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov məlumat vermişdir ki, qəsəbənin müxtəlif məhəllə və küçələrində geniş abadlıq işləri görülmüş, yol kənarlarına bordürlər düzülmüş, səkilər salınmışdır. 6,6 kilometr uzunluğunda mərkəzi və məhəllələrarası avtomobil yollarına asfalt örtük verilmişdir. Həmçinin elektrik, rabitə və işıqlandırma sistemləri yenidən qurulmuş, 4,5 kilometr elektrik, 750 metr yeraltı rabitə xətti çəkilmişdir. 860 metr yüksəkgərginlikli elektrik verilişi xətləri yeraltı kabellərlə əvəz edilmiş, yeni işıqlandırma dirəkləri basdırılmışdır.

Əcəmi Naxçıvani küçəsində yerləşən 9 ictimai yaşayış binasında da əsaslı təmir işləri aparılmışdır. 4 və 5 mərtəbədən ibarət olan binaların hər birində elektrik, qaz, rabitə, su və kanalizasiya xətləri yenilənmiş, mərkəzləşmiş antena sistemi quraşdırılmış, lazımi kommunal-məişət şəraiti yaradılmışdır. Binaların fasadı yenilənmiş, dam örtüyü, giriş qapıları və pəncərələri dəyişdirilmiş, dəhlizlər təmir olunmuşdur. İctimai yaşayış binalarının həyətində də abadlıq işləri görülmüş, açıq istirahət köşkləri və uşaq əyləncə meydançaları yaradılmış, yeni qazanxana tikilmişdir.

Abadlıq-quruculuq tədbirləri çərçivəsində Əliabad qəsəbəsindəki fərdi yaşayış binalarının fasadı da təmir olunmuş, yararsız dam örtükləri yenisi ilə əvəz edilmişdir. Həmçinin Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəsəbə sakinlərinin xatirəsinə ucaldılmış abidənin ətrafı da abadlaşdırılmışdır.

Ali Məclisin Sədri ərazidə yaşıllaşdırma tədbirlərinin görülməsi və Naxçıvan şəhərində quruculuq tədbirlərinin bundan sonra da davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

## Naxçıvan şəhərindəki Xatirə Muzeyi yeni binada fəaliyyət göstərəcəkdir



Muxtar respublikada milli və mədəni irsin qorunub saxlandığı, təbliğ və nümayiş olunduğu muzeylərin yaradılmasına, onların fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasına xüsusi diqqət yetirilir. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq hazırda Naxçıvan şəhərində Xatirə Muzeyi üçün yeni bina inşa olunur.

Oktyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xatirə Muzeyinin yeni binasına baxmışdır.

Məlumat verilmişdir ki, xüsusi memarlıq üslubunda tikilən bina iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə muzey əməkdaşları üçün iş otaqları tikilmiş, ikinci mərtəbədə isə geniş ekspozisiya zalı yaradılmışdır. Binada əsas tikinti işləri başa çatdırılmış, bütün lazımi kommunikasiya xətləri çəkilmişdir. Hazırda son tamamlama işləri aparılır.

Muzey binasının əhəmiyyətini artıran mühüm amillərdən biri də onun Şəhidlər Xiyabanı yaxınlığında yerləşməsidir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş etdiriləcəkdir.

Ali Məclisin Sədri muzeydə eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi və binada tikinti işlərinin keyfiyyətlə başa çatdırılması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Operativ vergi nəzarəti tədbirləri gücləndirilir

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən aldığımız məlumata görə, 2014-cü ilin ilk 9 ayı ərzində nazirlik və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 99 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmiş və müvafiq tədbirlər görülmüşdür.

Həyata keçirilən operativ nəzarət tədbirləri zamanı 27 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 32 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanmışdır.

Doqquz ay ərzində 1 vergi ödəyicisində 1 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edilməsi, 14 vergi ödəyicisinin “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 16 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olması, 3 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilmişdir.

Əlavə olaraq, keçirilən nəzarət tədbirləri zamanı 6 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkarlanmış və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülmüşdür. Həmin şəxslərdən 4-nün fəaliyyəti şəxsi nəqliyyat vasitələrindən istifadə etməklə sərnişindaşıma, 2 şəxsin fəaliyyəti isə səyyar qaydada qanunsuz olaraq ticarət fəaliyyəti göstərmələri olmuşdur.

Qeyd olunan dövr ərzində 58 obyektdə nəzarət-kassa aparatlarının quraşdırılması təmin edilmişdir.

Cari ilin ilk 9 ayında Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən, işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməsi tədbirləri, əməkhaqlarının real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırmalar mütəmadi olaraq davam etdirilmişdir. Aparılan araşdırmalar zamanı 214 işəgötürən tərəfindən 176 yeni əmək müqaviləsinin bağlanmasına, 373 əmək müqaviləsində isə göstərilən əməkhaqlarının real səviyyəyə çatdırılmasına nail olunmuşdur.

✍ **Muxtar MƏMMƏDOV**

## Daxili bazarın qorunması məqsədilə saxlanılmış mallar

### *Daxili Qoşunların “N” hərbi hissəsinə təhvil verilmişdir*

Gömrük orqanları tərəfindən daxili bazarın kənar təsirlərdən qorunması, yerli istehsalın stimullaşdırılması məqsədilə kütləvi yığım dövründə analoji kənd təsərrüfatı məhsullarının xaricdən gətirilməsi məhdudlaşdırılır. Yerli istehsalı daxili tələbatı ödəyən mallar ayrı-ayrı vətəndaşlar tərəfindən şəxsi istehlak normasından artıq həddə, o cümlədən satış məqsədilə gətirildiyi hallarda həmin məhsullar gömrük sərhəd-buraxılış məntəqələrində saxlanılır və barəsində müvafiq tədbirlər görülür. Gömrük anbarlarında müvəqqəti saxlanc müddəti bitmiş məhsulların yararsız hala düşməsinin qarşısını almaq, müxtəlif qapalı müəssisələrə, hərbi hissələrə diqqət və qayğı göstərmək məqsədilə belə mallar vaxtaşırı olaraq müxtəlif qurumlara təhvil verilir.

Bu tədbirlərin davamı olaraq, daxili bazarın qorunması məqsədilə gömrük sərhəd-buraxılış məntəqələrində saxlanılmış 900 kiloqram kartof, 110 kiloqram soğan və sarımsaq, 150 kiloqram kələm, 65 kiloqram pomidor və 75 kiloqram üzüm aktlaşdırılaraq Daxili Qoşunların “N” hərbi hissəsinə gətirilmiş, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə bu hərbi hissəyə təhvil verilmişdir.

Hərbi hissənin zabiti, baş leytenant Orxan Seyidov göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq etmiş, bu cür tədbirlərin şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratdığını vurğulamışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

10 oktyabr yanğınsöndürənlərin peşə bayramıdır

# Muxtar respublikamızda yanğın təhlükəsizliyinə etibarlı təminat yaradılıb

**Ulu öndər Heydər ƏLİYEV:** ***Bir hadisənin qarşısını almaq o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.***

*2002-ci il oktyabr ayının 5-də ümummilli liderimiz Heydər Əliyev hər il oktyabr ayının 10-nun "Yanğınsöndürənlərin peşə bayramı günü" kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır. Həmin tarixdən etibarən yanğınsöndürənlər hər il oktyabrın 10-da peşə bayramlarını qeyd edirlər.*

XX əsrin əvvəllərində yaradılan Azərbaycan yanğından mühafizə xidmətinin əsas inkişaf dövrü ötən əsrin 70-ci illərinə təsadüf edir. Zəngin siyasi və idarəçilik təcrübəsinə, fenomenal rəhbərlik qabiliyyətinə malik olan ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə yanğın təhlükəsizliyi sahəsi daha sistemli şəkildə inkişaf etməyə başladı. Yanğından mühafizə xidmətinin maddi-texniki və normativ-hüquqi bazası möhkəmləndirildi, kadr ehtiyatının yaradılmasına, şəxsi heyətin peşəkarlığının artırılmasına xüsusi diqqət yetirildi. 1997-ci ildə "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən etmişdir. Sonrakı dövrlərdə də Azərbaycanın yanğın təhlükəsizliyi xidməti inkişafda olmuş, yanğından mühafizə sistemləri təkmilləşdirilmiş, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılmışdır.

Azərbaycan yanğınsöndürənləri sırasında muxtar respublikamızın yanğınsöndürənləri də öz fəaliyyətləri ilə seçilir, baş verə biləcək yanğın hadisələrinin qarşısının alınması üçün müxtəlif tədbirlərin həyata keçirilməsini diqqətdə saxlayırlar. Son illər yanğın təhlükəsizliyi orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, ştat strukturunda dəyişikliklərin edilməsi və şəxsi heyətin rifahının yüksəldilməsi muxtar respublika yanğınsöndürənlərinin fəaliyyətinin hərtərəfli təşkilinə səbəb olmuşdur. 2002-ci ildə Sədərək rayonunda yeni ştat vahidləri verilməklə hərbiləşdirilmiş yanğın hissəsi yaradılmış, yanğın hissəsinin fəaliyyəti üçün müasir tələblərə uyğun olan inzibati bina və yanğın avtomobillərinə qaraj tikilmiş, 2003-cü ildə Ordubad və Şahbuz rayon peşəkar yanğın hissələrinin şəxsi heyətinin sosial rifahının yüksəldilməsi üçün peşəkar yanğın hissələri hərbiləşdirilərək yanğın hissələrinə çevrilmişdir. 2004-cü ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi yaradılmış, onun yerli orqanları xidmətdən şöbəyə çevrilmişdir.



Muxtar respublikamızda yanğın təhlükəsizliyi orqanlarının inkişafına göstərilən qayğı, sadəcə, maddi-texniki bazanın təkmilləşdirilməsi ilə məhdudlaşmır. Bu sahədə ixtisaslı və peşəkar kadrların hazırlanması da daim diqqət mərkəzində saxlanılır. 2006-2014-cü illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birbaşa diqqət və qayğısı nəticəsində 107 nəfər Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, Ukrayna Respublikasının Xarkov şəhərindəki və Belarus Respublikasının Minsk şəhərindəki akademiyalara, Bakı Yanğın Texniki Kollecinə təhsil almağa göndərilmişdir. Onlardan 55-i xidmət edən əməkdaş, 52-si isə ümumtəhsil orta məktəblərini bitirmiş mülki vətəndaş olmuşdur. Bu gün onlardan 86 nəfərinin təhsilini başa vuraraq xidmətini davam etdirməsi hesabına Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun şöbələri ixtisaslı kadrlarla komplektləşdirilmişdir.

Son illər şəxsi heyətin sosial rifahının yüksəldilməsi və maddi-texniki bazanın gücləndirilməsi məqsədilə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binaları əsaslı təmir edilmiş, Kəngərli, Şahbuz, Ordubad, Şərur, Babək və Sədərək rayonlarında Dövlət Yanğın Təhlükəsizliyi şöbələri üçün yeni inzibati binalar və texniki bokslar tikilərək istifadəyə verilmişdir. Cari ildə isə Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni inzibati binasının və texniki boksunun tikintisinə başlanması üçün müvafiq tədbirlər görülür. Bütün bunlar isə Naxçıvan Muxtar Respublikasında dövlət yanğın təhlükəsizliyi xidmətinə göstərilən diqqət və qayğının daha bir nümunəsidir.

Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin və onun şöbələrinin lazımi avadanlıqlarla təchizatı istiqamətində də mühüm işlər görülmüşdür. Belə ki, son illər Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun şöbələri 21 ədəd müasir yanğınsöndürmə avtomobili, 1 ədəd Fransa istehsalı olan "İVECO CAMİVA" markalı yanğın-nərdivan avtomobili, 5 ədəd əməliyyat minik avtomobili, tüstülü zonalarda insanları və yanğının mənbəyini müəyyən etmək üçün 1 ədəd xüsusi teplovizor aparatı, 16 min 600 litr köpük əmələ gətirən maye və digər texniki avadanlıqlar, eləcə də yanğınsöndürmə materialları ilə təmin olunmuşlar.

Muxtar respublikada yanğından mühafizə tədbirlərinin gücləndirilməsi məqsədilə maarifləndirmə işinə də xüsusi diqqət yetirilir. Əməkdaşlar mənzillərdə yoxlamalar keçirir, əhali arasında yanğın təhlükəsizliyi barədə söhbətlər aparırlar. 2014-cü ilin ötən dövrü ərzində əməkdaşlar 1986 obyektdə əsaslı, 1915 obyektdə isə nəzarəti yoxlamalar aparmış, vətəndaşlar "Şəxsi və dövlət yaşayış evlərində yanğın təhlükəsizliyi qaydaları" barədə tövsiyə xarakterli yaddaş kitabçaları təqdim edilərək təlimatlandırılmışlar. Muxtar respublika ərazisində fəaliyyət göstərən mühüm əhəmiyyətli və yanğın-partlayış təhlükəli 10 obyektdə baş verə biləcək yanğınların cəld və çevik qarşısının alınması üçün könüllü yanğınsöndürmə komandaları yaradılmış və yanğınsöndürmə avtomobilləri ilə təmin edilmişdir.

Hər il dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyi qaydalarının təmin edilməsi üçün Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi tərəfindən tədbirlər planı tərtib olunaraq icra edilir. Məhsul yığımında iştirak edən 135 kombayna yanğına qarşı texniki baxışlar keçirilərək həmin texnikalar odsöndürənlərlə təmin edilmişdir. Profilaktika işinin səmərəliliyini daha da artırmaq məqsədilə əkinçiliklə məşğul olan vətəndaşlara, kombaynçılara və sürücülərə "Ot-taxıl yığımı zamanı yanğın təhlükəsizliyi qaydaları haqqında" tövsiyələr təqdim edilmiş, dəyirmanların, taxıl və yem anbarlarının yanğın-texniki müayinəsi keçirilmişdir. Biçin dövrü ərzində sahələrdə profilaktik tədbirlərin həyata keçirilməsi məqsədilə Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin əməkdaşları tərəfindən patrul xidməti təşkil olunmuş, aparılan işlərin nəticəsində taxıl yığımı kampaniyasında zəmilərdə yanğınlar qeydə alınmamışdır.



Dövlət yanğın nəzarətinin həyata keçirilməsi məqsədilə muxtar respublika ərazisindəki təhlükə potensiallı və yanğın-partlayış təhlükəli obyektlərdə yoxlamalar, müayinələr aparılmış, obyektlərin yanğın təhlükəsizliyi vəziyyəti diqqət mərkəzində saxlanılmışdır. Binalarda, qurğularda, nəqliyyat vasitələrində və digər obyektlərdə mövcud olan yanğınsöndürmə vasitələrinin və inventarlarının vəziyyəti yoxlanılaraq qeydiyyata alınmışdır. Elektrik enerjisindən istifadə zamanı israfçılığın qarşısının alınması və yanğın təhlükəsi yarada biləcək sahələrin ləğv edilməsi məqsədilə 458 ədəd yanğın cəhətdən qorxulu olan və əlavə çəkilmiş elektrik xətti, 456 ədəd şlanqla çəkilmiş qaz xəttinin və qeyri-standart qaz plitələrinin istismarı dayandırılmışdır. Yanğın təhlükəli yerlərə yığılmış 86 ot-saman tayasının yerləri dəyişdirilərək təhlükəsiz yerlərə köçürülmüşdür. Eləcə də yanğın təhlükəsizliyi məsələləri ilə bağlı əhalinin maarifləndirilməsi istiqamətində müxtəlif növ təbliğat materialları, yaddaş kitabçaları və videomateriallar hazırlanmışdır. Yanğın təhlükəsizliyi və yanğından mühafizə məsələləri ilə bağlı muxtar respublika üzrə idarə, müəssisə və təşkilatlarda yığıncaq, müşavirə və maarifləndirmə tədbirləri keçirilmişdir.

*Peşə bayramlarını qeyd edən muxtar respublikanın yanğın təhlükəsizliyi xidmətinin şəxsi heyəti bundan sonra da yanğın təhlükəsizliyini etibarlı şəkildə təmin edəcək, nümunəvi xidmətləri ilə mənzilləri, istehsal müəssisələrini və digər obyektləri yanğından qoruyacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində iki yeni əməliyyat aparılıb

***Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi muxtar respublika üçün həyativacib obyektlərdən biridir. Ölkə başçısının muxtar respublika əhalisinə çox dəyərli hədiyyəsi olan bu səhiyyə ocağında çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, LOR, oftalmoloji, terapevtik, ginekoloji və tam komplektləşdirilmiş fizioterapevtik kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməyi ilə müxtəlif üzv və sistemlərin hərtərəfli müayinəsi mümkündür. Mərkəzi sinir sisteminin və sinir əzələlərinin fəaliyyətinin müəyyənləşdirilməsi məqsədilə tətbiq edilən müayinə üsulları regionda ilk dəfə burada tətbiq olunmağa başlanmışdır.***

Əməliyyat blokunun ən müasir tibbi aparat və cihazlarla təchizatı, yüksəkixtisaslı mütəxəssislərin yetişməsi, bütövlükdə, yaradılmış şərait artıq bir sıra mürəkkəb əməliyyatların yerli mütəxəssislər tərəfindən uğurla icra olunmasına imkan verir. Bir neçə gün əvvəl növbəti belə bir əməliyyat Babək rayonunun Hacıvar kəndindən gəlmiş 53 yaşlı Fərman Məmmədov üzərində həyata keçirilib. Mədənin funksiyası ciddi şəkildə pozulduğundan onun tamamilə götürülməsi üçün təcili təxirəsalınmaz cərrahi müdaxiləyə zərurət yaranıb. Hərtərəfli tibbi müayinələr xəstəyə qoyulan adenokarsionoma diaqnozunu təsdiqlədiyindən ən müasir tibbi aparat və cihazların tətbiqi ilə qastroektomiya əməliyyatı aparılıb. Xəstə bir neçə günlük müşahidə altında qaldıqdan sonra tam sağalma ilə evə buraxılıb.

Mərkəzdə icra olunan digər əməliyyat isə endoskopik metodla qastrostomiya adlanır. İlk dəfə bu metod 1979-cu ildə Klivlenddə (ABŞ) endoskopist Ponski və uşaq cərrahı Qauder tərəfindən yüksək əməliyyat riski olan xəstələrdə aparılıb. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində isə bu metod Şərur rayonunun Danyeri kəndindən gəlmiş Sabir Sultanov üzərində tətbiq olunub. İlk olaraq fibroqastroskop mədəyə yeridilərək punksiya yeri anesteziya olunub, 3 mm ölçüdə kəsik aparılıb, endoskopun görüntüsü altında uyğun kateterlə mədəyə tel salınaraq onun bir ucu endoskopla birgə ağız boşluğundan çıxarılıb. Telin digər tərəfi qastrostom trubkası ilə dartılaraq dəriyə fiksə olunub.

Böyük kəsiyin aparılmaması bu metodun üstünlüklərindən biridir. Endoskopik metodla qastrostoma qulluq sadə və təhlükəsiz olduğundan əlavə tədbirlərə ehtiyac qalmır. Ümumi narkoz tələb olunmur, əməliyyat 15-20 dəqiqə müddətində yerinə yetirilir.

Naxçıvan səhiyyəsinin tarixində ilk dəfə icra olunan hər iki əməliyyat mərkəzin baş həkimi, yüksəkixtisaslı cərrah Abasət Hüseynəliyev tərəfindən aparılıb. İkinci əməliyyat mərkəzin endoskopist həkimi Cabir Hüseynovla birgə icra olunub. Qeyd edilməlidir ki, indiyədək belə mürəkkəb əməliyyatlar üçün xəstələr ölkəmizin paytaxtına və digər ünvanlara üz tutmalı olurdular.

Bütün bunlar muxtar respublika səhiyyəsində həkimlərin peşə bacarıqlarının artırılması istiqamətində həyata keçirilən ardıcıl tədbirlərin məntiqi nəticəsidir. Bu məqsədlə hər ay keçirilən elmi-praktik seminarlar, konfranslar, təlim və treninqlər, həkim və orta tibb işçilərinin Bakı şəhərindəki, həmçinin Türkiyə Respublikasındakı müxtəlif klinika və xəstəxanalara kurslara göndərilməsi, onların yüksəkixtisaslı mütəxəssislərin iştirakı ilə həyata keçirilən mürəkkəb cərrahi əməliyyatlarda iştirakı, praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan tibb işçilərinin sertifikasiyası onların peşə bacarıqlarının artırılmasında xüsusi rol oynayır. Bütün bunların nəticəsidir ki, artıq muxtar respublikanın yerli kadrları müstəqil şəkildə xəstələr üzərində açıq ürək, angioqrafiya, laporoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirir.***

# Culfada könüllü qanvermə aksiyası keçirilib

Belə aksiyalardan biri Culfa Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Donorların müayinəsini və qan götürülməsini həyata keçirən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkimi Vidadi Quliyev ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb. Qeyd olunub ki, müasir təbabətdə həkimlərin əlində çoxlu müalicə vasitələri olmasına baxmayaraq, ən ağır vəziyyətlərdə xəstələrin həyatlarının xilas edilməsi üçün əvəzsiz rol oynayan canlı dərman donor qanıdır. Hemofiliya və talassemiya xəstələrinin müalicəsində qan komponentlərinin və preparatlarının istənilən vaxtda əlçatan olması çox vacibdir. Müxtəlif travma və yaralanmalar, mürəkkəb cərrahi əməliyyatlar və doğuşlar zamanı qanitirmələrdə, xroniki qanazlığında, qanın irsi və qazanılmış xəstəliklərində, onkoloji xəstəliklərdə, daxili orqanların (ürək, böyrək, mədə-bağırsaq, qaraciyər və sair) müxtəlif xəstəliklərində qandan və ya qandan hazırlanmış preparatlardan geniş istifadə olunur. Qandan belə geniş istifadə edilməsi ona olan tələbatı da artırır. Bu baxımdan qan donorluğunun, xüsusən təmənnasız donorluğun böyük əhəmiyyəti vardır. Xalqımızın donorluğa göstərdiyi rəğbət, insanpərvərlik, xeyirxahlıq və humanizm bu işin təşkilinə böyük kömək edir. Muxtar respublikamızda da bu istiqamətdə tədbirlər ardıcıl olaraq həyata keçirilir.

Sonra "Sən də bir həyat ver" devizi altında qanvermə aksiyası keçirilib. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada xəstəxananın həkim və tibb bacıları, texniki heyəti ilə yanaşı, Culfa rayonunun idarə və müəssisələrindən 30 nəfər könüllü olaraq 6,6 litr qan verib. Donorlardan götürülən qanın qrupları müəyyənləşdirilərək birli və ikili torbalarda mərkəzin qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Abidələrin tədqiqi Naxçıvanın tarixinə yeni səhifələr yazacaq

***Qədim sivilizasiya mərkəzlərindən biri olan Naxçıvan diyarı arxeoloji abidələrlə zəngindir. Onlar həm yazıyaqədərki, həm də yazının meydana çıxmasından sonrakı tariximizi öyrənmək üçün əvəzsiz mənbələrdir. Abidələrimizin tədqiqi zamanı əldə olunmuş elmi nəticələr nəinki Azərbaycan, eləcə də dünya arxeologiyasının öyrənilməsində müstəsna əhəmiyyət kəsb etməkdədir.***

Bu gün Naxçıvanda maddi və mədəniyyət abidələrimizə diqqət və qayğı yüksək səviyyədədir. Son illər arxeoloji abidələrdə, ilk insan məskənlərində aparılan arxeoloji tədqiqatlar tarixi keçmişimizin daha dərin qatlarını üzə çıxarıb. Bir neçə ildir ki, muxtar respublikanın müxtəlif ərazilərinə beynəlxalq ekspedisiyalar təşkil olunur, dəyərli maddi-mədəniyyət nümunələri əldə edilir. Bu il də muxtar respublikamızda arxeoloji qazıntılar uğurla həyata keçirilib. Həmin araşdırmalar barədə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev bizə ətraflı məlumat verdi:

– Bu il Naxçıvan Muxtar Respublikasının bir çox abidələrində, o cümlədən Xaraba Gilan, Qızqala, Meydantəpə, Qalacıq, II Kültəpə, Şahtaxtı və digər abidələrdə araşdırmalar aparılıb, Naxçıvanın tarixi üçün maraqlı nəticələr əldə edilib. Bunlar arasında AMEA Naxçıvan Bölməsinin "Yeni yol arxeoloji ekspedisiyası"nın işi xüsusilə maraqlı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə yaradılan bu ekspedisiya "Yeni yol" yaşayış yerində tədqiqatlar aparıb. Tədqiqatlar nəticəsində Naxçıvanın qədim tarixinə aid yeni faktlar aşkar edilib. Bu ərazidə bizim qeydə aldığımız yeni abidələr Naxçıvançay və Sirabçay zonasını "Yeni Mesapotamiya" adlandırmağa elmi əsas verib. Bu abidələrin tədqiqi nəinki Naxçıvan tarixinə yeni səhifələr yazacaq, həmçinin Cənubi Qafqaz, o cümlədən Azərbaycan arxeologiyasının mühüm problemlərinin həll olunmasına imkan verəcəkdir.

### *Orta Tunc dövrünə aid Boyalıqablar mədəniyyəti Naxçıvanda formalaşıb*

Vəli müəllim bildirdi ki, bu il Naxçıvanda iki beynəlxalq ekspedisiya tədqiqat işləri aparıb. Onlardan biri Şərur rayonunda, digəri isə Babək rayonunda işləyib. Bu il Şərurda beynəlxalq Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası, başlıca olaraq, Qızqalada tədqiqatlar aparıb. Qızqalada aparılan tədqiqatlar Cənubi Qafqaz və Yaxın Şərq tarixinin bir sıra qaranlıq məsələlərinə aydınlıq gətirib. Keçən il aparılan araşdırmalar zamanı Qızqalada böyük çoxtəbəqəli yaşayış yerinin olduğu müəyyən edilib. Bu il yaşayış yerinin Orta Tunc dövrü təbəqəsi tədqiq olunub. Orta Tunc dövrünə aid mədəni təbəqənin qalınlığı 2 metrdən artıqdır. Məlum olduğu kimi, Cənubi Qafqazın bir sıra regionlarında, o cümlədən Gürcüstan və indiki Ermənistanda yaşayış yerlərində Orta Tunc dövrü təbəqəsinə rast gəlinməyib. Orta Tunc dövrü təbəqəsi yoxdur. Orta Tunc dövrü təbəqəsinə Şərqi Anadolu abidələrində də rast gəlinməyib. Orta Tunc dövrünün yaşayış yerləri, başlıca olaraq, Naxçıvanda və Araz çayından cənubdakı ərazilərdədir. Bu isə Orta Tunc dövrünə aid Boyalıqablar mədəniyyətinin Naxçıvanda formalaşdığını göstərir.

Tədqiqat işləri həmçinin yaşayış yerinin yaxınlığında yerləşən nekropolda da davam etdirilməkdədir. Nekropoldakı kurqanların tədqiqi zamanı Boyalıqablar mədəniyyətinin erkən mərhələsinə aid maddi-mədəniyyət nümunələri aşkar edilib. Tədqiqat zamanı aşkar olunan maraqlı məqamlardan biri də qəbirlərdə insan skeletinin aşkar olunmasıdır. Məlum olduğu kimi, Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda Orta Tunc dövrü qəbirlərindən insan skeleti aşkar olunmadığından bəzi tədqiqatçılar bu mədəniyyəti hind-arilərə aid etməyə cəhd ediblər. Aşkar olunan yeni faktlar Naxçıvanda formalaşan Orta Tunc dövrü mədəniyyətləri arasındakı varislik əlaqələrini müəyyən etməyə imkan verməklə yanaşı, həm də bu nəzəriyyə tərəfdarlarının iddialarına son qoydu.

### *Kültəpənin tarixi ilə bağlı bir sıra qaranlıq məsələlərə aydınlıq gətirilib*

Vəli Baxşəliyev deyir ki, Sədərək, Kəngərli və Ordubad rayonlarında ərazilərində də araşdırmalar aparılaraq gələcəkdə tədqiq ediləcək abidələr müəyyənləşdirilib. Babək rayonunda beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası, başlıca olaraq, I Kültəpə abidəsini tədqiq edib. Əsas məqsəd Cənubi Qafqazın ən mühüm Neolit abidələrindən biri olan Kültəpə ilə bağlı yeni faktların aşkarlanaraq elm aləminə tanıdılmasıdır. Çünki bu abidə sovet dövründə öyrənilsə də, materialları yaxşı nəşr olunmayıb, karbon analizlərin nəticələri isə köhnəlib. Bu isə Kültəpənin tarixi ilə bağlı bir sıra məsələlərə münasibətdə beynəlxalq elmi ictimaiyyətdə şübhə yaradır. Bizim araşdırmalarımız zamanı artıq bir sıra məsələlərə aydınlıq gətirilib. Builki araşdırmalar zamanı I Kültəpənin Neolit dövrünə aid təbəqəsinin kəsiyi alınıb və onun tarixini dəqiqləşdirmək imkanı yaranıb.

Beynəlxalq ekspedisiyanın işi yalnız Kültəpə abidəsinin tədqiqi ilə məhdudlaşmayıb. Yuxarıda qeyd etdiyimiz kimi, AMEA Naxçıvan Bölməsinin apardığı araşdırmalar zamanı Naxçıvançay və Sirabçay hövzəsində yeni abidələr, o cümlədən 22 Eneolit abidəsi aşkar olunub. Bu abidələr Yaxın Şərqi obsidianla təmin edən qədim yolun Sirabçay boyunca Zəngəzur dağlarına uzandığına işarə etməkdədir. Sirabçay abidələrində həmçinin xeyli mis mineralı və metal tökmək üçün qəliblər aşkar olunduğundan bizdə bu bölgənin mühüm metallurgiya mərkəzi olması qənaəti yaratdı. Bu məqsədlə Sirabçay vadisində yerləşən Şorsu və Zirinci abidələrində də arxeoloji tədqiqatlar aparılıb.

Beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası həmçinin dünyanın ən qədim duz mədənləri olan Duzdağda araşdırmaları davam etdirib, qədim tunellərin birindən Kür-Araz mədəniyyətinə aid gil qab aşkarlayıb. Tədqiqat işləri zamanı mədənlərin birindən Erkən Dəmir dövrünə aid gil qab və həsir səndəl tapılıb ki, bu, qədim insanların hansı şəraitdə işləmələri ilə bağlı müəyyən təsəvvür yaradır. Ovçular təpəsindən aşkar edilən Kür-Araz keramikasının analizi onun Duzdağdan çıxarılan gildən hazırlandığını göstərir.

### *Builki tədqiqatlar zamanı Naxçıvanın qədim tarixi coğrafiyası ilə bağlı yeni faktlar aşkar olunub*

Builki ekspedisiyada mühüm elmi nəticələr əldə olunduğunu qeyd edən Vəli Baxşəliyev dedi ki, tədqiqat zamanı Naxçıvanın qədim tarixi coğrafiyası ilə bağlı yeni faktlar aşkar olunub. Builki qazıntılar Naxçıvanın Orta Tunc dövründə Yaxın Şərqin böyük bir qismində yayılan Boyalıqablar mədəniyyətinin ana vətəni olduğunu təsdiq edir. Kültəpədə aparılan araşdırmalar qədim insanların burada Neolit dövründən məskunlaşdığını sübuta yetirir. Kültəpə abidəsi ətrafında aparılan geomorfoloji araşdırmalar zamanı e.ə. IV minillikdə Naxçıvanda böyük daşqın olduğunu, bəzi yaşayış yerlərinin daşqının lili altında qaldığını ortaya çıxarır. Bu, Nuh tufanının tarixi həqiqət olduğunu təsdiq edən faktlardan biridir.

– *Gələcəkdə hansı ərazilərdə arxeoloji qazıntılar aparılması nəzərdə tutulub?* sualımızı Vəli müəllim belə cavablandırdı:

– Aparılan hər yeni arxeoloji qazıntı zamanı Naxçıvan diyarının qədimliyi ilə bağlı yeni-yeni maddi-mədəniyyət nümunələri aşkarlanır. Bunlar doğma diyarımızın ulu tarixindən xəbər verir. Yuxarıda qeyd etdiyimiz kimi, bir çox yeni abidələr aşkar olunub. Gələcəkdə bu abidələrin bir neçəsində arxeoloji qazıntıların aparılması, Naxçıvanın qədim tarixi ilə bağlı yeni faktların elmi dövriyyəyə buraxılması planlaşdırılır.

### *Dünənə ehtiram sabaha yol açan işıqdır*

Naxçıvan Muxtar Respublikasının ərazisindəki abidələrimizin hər birində zəngin mədəniyyətimiz yaşayır. Bu gün abidələrimizə böyük uzaqgörənliklə dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, onlar əsaslı təmir və bərpa olunur. Mədəniyyətimizi, abidələrimizi qoruyub saxlamaq şəhər mədəniyyətinin yaradıcıları olmuş əcdadlarımızın xələfləri kimi müasir nəslin qarşısında duran ən müqəddəs vəzifələrdəndir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə ümummilli lider Heydər Əliyev demişdir: ***"Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında Sərəncam imzalamışam... Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".***

Bu gün muxtar respublikamızın bir çox ərazilərində aparılan tədqiqatlar, əldə olunan elmi nəticələr, mühüm elmi nəşrlər ulu öndərin Naxçıvanın qədim tarixinin öyrənilməsi sahəsində qarşıya qoyduğu vəzifələrin uğurla yerinə yetirilməsinin göstəricisidir.

# Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin uğurları ilbəil artır



***Naxçıvan şəhərində fəaliyyət göstərən tam orta məktəblər sırasında builki qəbul imtahanlarında yüksək nəticə göstərmiş Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdən yazı hazırlamaq üçün həmin təhsil ocağına gedərkən yol boyu 19 il bundan əvvəl muxtar respublikadakı məktəblərin vəziyyətini gözlərim önündə canlandırdım. O məktəbləri ki, yaşlı və orta nəsil yaxşı xatırlayar: minimum tələblərə cavab verməyən soyuq sinif otaqları, köhnəlmiş tədris avadanlıqları təhsil ocaqlarında tədrisin səviyyəsini yüksəltməyə qəti imkan vermirdi. Ümumilikdə, muxtar respublikada müasir tələblərə cavab verən məktəb binaları barmaqla sayılacaq qədər az idi. İndi isə təkcə Naxçıvan şəhərində deyil, ən ucqar dağ kəndlərində belə, ən müasir məktəb binaları tikilir, onların maddi-texniki bazaları gücləndirilir, yeni informasiya texnologiyalarının tətbiqi diqqət mərkəzində saxlanılır. Məktəblilər pulsuz dərsliklərlə təmin olunurlar. Tədris ocaqlarında fəaliyyət göstərən kitabxanalar da eləcə.***

Görülən bütün bu işlərdə əsas məqsəd gələcəyimiz olan uşaqların savadlı, bilikli, vətənpərvər gənclər kimi yetişdirilməsindən ibarətdir. Çünki hər bir ölkənin gələcəyi onun hazırladığı gənclərdən asılıdır. Yaradılmış şərait hesabına isə təhsildə keyfiyyət dəyişiklikləri ildən-ilə artır. Belə ki, hər il qəbul imtahanlarında məktəblərimiz uğurlu nəticələr əldə edirlər. Belə məktəblərimizdən biri də Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəbdir.

Qeyd edək ki, məktəb binası 1963-cü ildə inşa edilib. Yararsız hala düşdüyündən 2006-cı ilin mart ayında sökülərək yerində müasir məktəb binası tikilib. Bu, məktəb kollektivinin, bu məktəbdə təhsil alan şagirdlərin ürəyincə olub. Onların uzun müddət yaddaşlarında yaşayacaq hadisə isə məktəbin binasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfəri zamanı istifadəyə verilməsi olub. Açılış mərasimində iştirak edən ölkə başçısı məktəbin müəllim kollektivi və şagirdləri ilə görüşüb, onlara uğurlar arzulayıb.

Yeni təhsil ocağı istifadəyə verildikdən sonra məktəbin fəaliyyətində mühüm dönüş yaranıb. Bu səbəbdən məktəbin ali məktəblərə qəbulunun nəticələri yüksələn xətlə artmaqdadır. Son iki ilə nəzər yetirək. 2012-2013-cü tədris ilində məktəbin məzunlarının 82 faizi ali məktəblərə qəbul olmuşdusa, 2013-2014-cü tədris ilində bu rəqəm 91,75 faiz təşkil edib. Bu il məktəbin məzunlarından 35 nəfər ali məktəbə sənəd verib, onlardan 33 nəfəri tələbə adını qazanıb. Tələbə adını qazananlardan 7 nəfər 500-700 intervalında bal toplayıb. Məzunlardan "Gümüş" medala layiq görülmüş Vilayət Seyidov 632 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin "hüquqşünaslıq" ixtisasına qəbul olunub. Abituriyentlərdən 18 nəfər ali məktəb seçimində Naxçıvan Dövlət Universitetinə üstünlük verib.

Hazırda məktəbdə 541 nəfər şagirdin təlim-tərbiyəsi ilə 125 müəllim məşğul olur. Təhsil elə bir sahədir ki, burada dövlətin qayğısı və əməli fəaliyyət mühüm rol oynayır, müəllim əməyi, müəllim biliyi, pedaqoji ustalıq tələb olunur. Məhz qazanılan uğurlarda müəllimlərin də əməyi danılmazdır. Məktəbdə dərsdən sonra da şagirdlərin hazırlığı ilə məşğul olmaq üçün onları fakültativ məşğələlərə cəlb etmək diqqətdə saxlanılır. Təhsil ocağının pedaqoji kollektivi şagirdlərin adlarının tələbələr sırasında olması üçün var qüvvəsi ilə çalışır. Bir məsələni də xüsusi qeyd edək ki, müəllimlər şagirdlərin milli dəyərlərə, yaradıcı təfəkkür və məntiqi yanaşmaya malik, dünyagörüşlü gənclər kimi yetişmələrinə ciddi önəm verirlər.

Məktəbin direktoru, Azərbaycan Respublikasının əməkdar müəllimi Aygün Hüseynova deyir ki, dünyanın heç bir ölkəsində məktəb binaları Azərbaycanda olduğu kimi sürətlə, ən müasir tələblər səviyyəsində inşa olunmur, müasir avadanlıqlarla təchiz edilmir. Təhsilin inkişafı gənclərin gələcəyə hazırlanması deməkdir. Əgər muxtar respublikamızda təhsilin inkişafı üçün bu qədər tədbirlər görülürsə, yeni məktəb binaları tikilirsə, məktəblərin maddi-texniki bazası möhkəmləndirilirsə, biz müəllimlər də yaradılan şərait müqabilində vətənpərvər, təhsilli, yüksək intellektual səviyyəyə malik gənclər yetişdirməliyik.

O, rəhbərlik etdiyi məktəbdə qazanılan uğurların səbəblərinin həm də məktəb kollektivinin işinə məsuliyyəti ilə izah edir. Bildirir ki, dövlət qayğısı, yaradılan şərait və tədris işinə məsuliyyət hissi məktəbdə vəhdət təşkil edir. Əldə edilən nəticələrin artırılmasında məktəbdənkənar tədbirlərin, xüsusilə test-sınaq imtahanlarının obyektiv formada keçirilməsinin böyük əhəmiyyəti var. Hər sınaq imtahanının nəticələri valideyn və müəllimlərlə birgə müzakirə olunur.

Yuxarıda da qeyd etdiyimiz kimi, məktəbdə şagirdlərin hərtərəfli inkişafı üçün hər cür şərait yaradılıb. Məktəbin informasiya-kommunikasiya texnologiyaları ilə təminatına xüsusi diqqət yetirilib, təhsil ocağında 2 kompüter sinfi yaradılıb. Kompüter siniflərində internetə qoşulmuş 23 dəst kompüter quraşdırılıb və onların internetə çıxışı təmin edilib. Təhsil ocağında həm də 4 elektron lövhəli sinif var. Elektron lövhədə şagirdlər müxtəlif fənlərə aid dərsləri əyani şəkildə öyrənirlər. Kompüterdən istifadə edərək müxtəlif test tapşırıqları elektron lövhə vasitəsilə şagirdlərə mənimsədilir. Elektron lövhədə mətnlərlə yanaşı, şəkillərin və videomateriallarin da göstərilməsi şagirdlərin keçilən dərsi daha yaxşı qavramalarına imkan verir. Təhsil ocağının laboratoriyaları zənginliyi və müasirliyi ilə diqqəti cəlb edir. Dəqiq elmlərin tədrisi zamanı müasir laboratoriyaların imkanlarından istifadə olunması nəzəri biliklərin praktik vərdişlərlə möhkəmləndirilməsinə geniş imkanlar açır.

*Məktəbdə yaradılan şəraitdən lazımınca bəhrələnib qazanılan uğurları son hədd hesab etməyən pedaqoji kollektiv daha yüksək nailiyyətlərə imza atmaq əzmi ilə çalışır.*

**Səhifəni hazırladı: Sara ƏZİMOVA**

# Bulaqlar buludun göz yaşlarıdır
## torpağın sinəsindən axır

*90 yaşlı muxtariyyət tarixinin son iyirmi ilində həyata keçirilən siyasət sayəsində həyatımıza daxil olan yeniliklər yeni terminlərin, yeni adların və yeni ünvanların yaranmasına səbəb olub. "Bulaq-abidə" sözü də dilimizə elə o vaxtdan düşüb. Belə bulaq-abidələr Şahbuz rayonunu da bulaqlar qalereyasına çevirib.*



Yurdumuzun gül-çiçəyi, təbii sərvətləri kimi, çayları, çeşmələri, gölləri, bulaqları da dillər əzbəridir. Ölkəmizdə ümumi uzunluğu 34 min kilometrə bərabər olan irili-xırdalı 8350 çay vardır ki, onların bəzilərinin uzunluğu 8-10 kilometrdən artıq deyil. Amma onlar dağlarımızı, düzlərimizi, dərələrimizi, obalarımızı, oymaqlarımızı cana gətirirlər. Təəssüflə qeyd etməliyik ki, dünyanı caynağına alan ekoloji problemlər bizim də qurumuş çaylarımızın və bulaqlarımızın sayını artırır.

Mütəxəssislərin hesablamalarına görə, respublika üzrə əhalinin hər bir nəfərinə 1,9 min kubmetr su düşür. Çoxumuz suyun qədrini bilməsək də, onun azlığından tez-tez şikayət edərək "çox idi, indi azalıb" deyirik. Amma "azalıb" yox, "azaltmışıq" deməliyik. Səbəbi üçünsə baş sındırmaq lazım deyil. Bulaqlar meşələrdə, çaylarsa bulaqlarda "anadan olurlar". Bir vaxtlar, az qala, elliklə əlibaltalı meşələrimizə "hücum çəkəndə" heç düşünmürdük ki, meşələri qırıb talamaqla bulaqlarımızı, bulaqlarımızı qurutmaqla da çaylarımızı susdururuq. Beləcə, nə qədər durnagözlü bulaqlarımızın gözünü kor qoyduğumuzu heç ağlımıza gətirmirdik. Bilmədik ki, bulaqları susdurmaqla təbiəti küsdürürük. Təbiəti küsdürməklə də özümüzü neçə-neçə nemətdən məhrum edirik. Nə yaxşı ki, insanla vuruşda təbiət taqətdən tez düşmür. Yaxşı ki, təbiətimizlə üz-üzə dayanıb ona qənim kəsiləndə ulu öndərimiz "dur" deyə hər birimizin gözünü açdı. "Qaldırdığın balta mənim, sənin və övladımızın gələcəyə uzanan qollarını kəsir – bunu anla" deməklə O, təbiətimizə qahmar çıxdı. Bu canıyananlıq hər birinin öz axar-baxarı, dadı-tamı olan bulaqlarımızın da çağlamasına, körpə gözlərin açılmasına səbəb oldu.

Hərəsi bir dərdin dərmanı olan çeşmə sularımız öz xüsusiyyətlərinə görə xalq arasında ad qazanıb. "Yara suyu", "Böyrək suyu", "Mədə suyu", "Dəri suyu", "Göz suyu" deyə adlandırılan bu adlar bulaqların hansı dərdin məlhəmi olmağından xəbər verib insanlara. Unutmamalıyıq ki, "dirilik suyu"nun sorağı ilə çox igidlərimiz yelqanadlı at belində gedər-gəlməzə yollanıblar bir zamanlar. Həmin atların ayaq səslərini biz rəvayətlərimizdə, nağıllarımızda, əfsanələrimizdə eşidirik. Sən demə, igidlərin əsrlər boyu şam-çıraqla axtardıqları "dirilik suyu" yurdumuzun qayalarının göz yaşı, çiçəklərinin şəbnəmi, uca dağlarının dumanı, sisi kimi başımızın üstündə, gözümüzün önündəymiş. Bu gözəlliyi görmək üçün göz gərəkmiş. Amma nə edək ki, 70 illik sovet imperiyası və ondan sonrakı keçid dövründə əks-təbliğat maddi və mənəvi sərvətlərimizə bir biganəlik, laqeydlik aşılamışdı bizə. Hər kəsin varı-dövləti, vətəni sanki öz kandarının ağzına kimi idi. Ondan o tərəfə kimə mənsubdur, heç düşünən yox idi...

Şükürlər olsun ki, əsrlər boyu həsrətini çəkdiyimiz müstəqilliyimiz sayəsində olanımıza, qalanımıza sahib çıxıldı. Elə bu sahiblik sayəsində yurdumuz qarış-qarış, oba-oba dirçəlməyə, gözəlləşməyə və inkişaf etməyə başladı. Muxtar respublikamızın da ərazisinə daxil olan bölgələrin bəxtəvər günləri elə o zamandan başladı. Firavan günlərini yaşayan Şahbuz rayonunun da dağlar, şiş qayalar əhatəsində olan kəndlərinin siması dəyişdi, zümrüd rəngli, əsrarəngiz təbiəti canlandı. Bu təbiəti cana gətirənsə dağlarda, dərələrdə torpağın göz yaşları kimi çağlayan çaylar, bulaqlar, çeşmələr oldu. Bunu dərk edən insanlar onun qədrini bilərək ona sahib çıxdılar.

Sovet dönəmlərində gözüsulu dağların bu sərvətinə tamarzı qalan insanlar bir ovuc bulaq suyu üçün yazda, yayda, payızda tez-tez güzarını dağlardan, dərələrdən salırdı. Və hər kəs də böyük təəssüf hissi ilə bu çeşmələrin, bulaqların suyundan istifadə edilməsinin mümkünsüzlüyündən gileylənirdi. Kimsənin isə ağlına gəlmirdi ki, nə vaxtsa bu bulaqlar yol kənarlarında nəinki kənd adamlarının, bu yerlərə üz tutan qonaqların belə, ürəyini sərinlədəcək.

Müstəqillik illərində bulaqlarımıza da sahib çıxıldı. Qurbanlar bahasına qazandığımız müstəqilliyimizin qarantı olan ulu öndərin bizə aşıladığı vətəndaşlıq qayəsi vətəndaş olmağımıza və Vətənimizə sahib çıxmağımıza nail olmaq üçün dünənimizi, bu günümüzü bizə tanıtdı. Beləcə, altı da, üstü də sərvət olan bu yurdun qədir-qiymətini anladıq.

Təbii sərvətlərimizin ən qiymətlisi olan bulaqların, çayların, çeşmələrin axarını dəyişdik. Bütün dünyada qıtlığı hiss olunan şirin suyun dağlarımızdan üzübəri şəhər, qəsəbə və kəndlərimizə gətirilməsinə nail olduq. El birliyi ilə dağ oynadı yerindən. Salvartının, Dağdağanın, Şahdağın, Çınqıllının sinəsində çağlayan büllur sular evlərimizə gəldi. Evlərimizdən məhlələrimizə, küçələrimizə paylanan sular sonradan bulaq-abidələrdən çağladı.

Bu gün Şahbuz rayonunun hər bir kəndində bir neçə bulaq-abidədən su axır. Bu gün şahbuzlular qürurla bu bulaq-abidələrin suyu ilə öz qonaqlarının ürəyinə sərinlik bəxş edirlər.

Mən işimlə əlaqədar olaraq rayonun müxtəlif yaşayış yerlərində olarkən müşahidə etmişəm ki, indi, az qala, hər kəndin özünəməxsus bir və ya bir neçə bulaq-abidəsi var. Onların çoxu da əsrlərcə xalq arasında öz adı olan bulaqların adı ilə adlandırılır.

Əgər Şahbuzu bir tabloya bənzətsək və o tabloda bulaq-abidələr öz əksini tapsa, bilirəm ki, bu mənzərə hər kəsi heyran edər. Mən də adamı əfsunlayacaq o tablonun mənzərəsini sözün gücü ilə yaratmaq istəyirəm.

Şahbuza gələn qonağı, ilk olaraq, Daylaqlı kəndi ərazisindən keçən yolun kənarındakı "Böyrək suyu"nun çağladığı bulaq-abidə salamlayır. Sonra Şahbuz şəhərinin Heydər Əliyev prospektindəki və istirahət parkındakı iki müxtəlif formalı bulaq-abidə öz varından pay tutur yolçuya. Batabat dağlarında çağlayan bu bulaqların suyundan muxtar respublikamızın hər yerindən gələn qonaqlar və yolçular evlərinə belə aparırlar.

Yol yoxuşa qalxdıqca bulaq-abidələrin də sayı artır, forması dəyişir. İşgəsu massivindəki iki bulaq-abidə də öz formasına və yerinə görə doyumsuz bir gözəlliyə malikdir. Salxım söyüdlərin baş-başa verib gizlədikləri çay kənarında yaradılan bu bulaq-abidələr də öz görünüşü ilə qonaqları ovsunlayır. Həmin ərazidəki balıqçılıq təsərrüfatının ətrafında yaradılan əsrarəngiz mənzərəyə sanki nöqtə qoyurmuş kimi bütün gözəllikləri ətrafında cəmləşdirən bulaq-abidənin qonaq-qarası daha çox olur.

Oradan ayrılıb bir az irəliyə getdikcə kənardan uca dağların alçaq sinəsində qərar tutmuş Plovtəpə massivindəki bulaq-abidə yolun lap kənarında yolçuya "buyur, əyləş" deyir sanki.

Avtomobil istiqamətini dəyişib Mahmudoba, Nursu tərəfə üz tutsa, Şahbuz şəhərinin inzibati ərazisinə daxil edilmiş əraziyə aid olan yaşayış məntəqəsini ikiyə ayıran yolun sağ tərəfində çağlayan bulaq-abidə ilə qarşılaşacağıq. Bu yolu axıra kimi gedənlərsə Mahmudoba kəndinin girəcəyindəki bulaq-abidənin suyundan da bir stəkan içib ürəyini sərinlədə bilər.

Əgər boz dumanı əlçim-əlçim olan Batabata sarı yollansaq, onda da şöhrəti ellərə yayılmış yaylağın qonaqlarını "salamlayan" Söyüdlü bulaq-abidəsinin ətrafında ayaq saxlayacağıq. Üzü dağlara sarı qıvrılan şümşad yolla yuxarı qalxdıqca adamı heyrətləndirən təbiət mənzərələri bizi Zor bulağa kimi öz sehrinə salar. Burda ayaq saxlayarıq. Bu bulağın da ətrafında yaradılan istirahət guşəsinin qonaqların sevimli yerinə çevrildiyini ətrafındakı qələbəlikdə seyr edərik. Gözəllik görmək eşqinə səmtimizi dəyişib Şahbuz Dövlət Təbiət Qoruğu ərazisinə üz tutsaq, burada da gözümüzaxtaran gözəllik içərisində könlümüzə sərinlik gətirən bulaq-abidədən bir qurtum su içərik. Qoruğun inzibati binası qarşısında, həmçinin yaylağın adı ilə adlandırılan "Batabat" restoranının həyətində yaradılmış bulaq-abidələr il boyu çağlayır. Batabatdan enib Ağbulağa üz tutanda isə kəndə çatmamış yenə də bizi ətrafındakı doyumsuz təbiət mənzərələri ilə heyrətləndirən Ağbulaq bulaq-abidəsi qarşılayır.

Bu gün muxtar respublikanın hər bir bölgəsindən, hətta Azərbaycanın müxtəlif yerlərindən buraya gələn insanlar qonaq olduqları Ağbulaq İstirahət Mərkəzinin həyətində dağların bal kimi şirin sularının çağladığı bulaq-abidələrdən bir ovuc içərək "oxay" deyib ürəklərini sərinlədirlər.

Bir yolun iki səmtə ayrılan qolu üstündəki Gömür kəndi ərazisində qərinələrlə yaşı olan müalicəvi əhəmiyyətə malik "Şor su" deyilən bulağın ətrafında yaradılan Şəfa bulaq-abidəsi də öz görünüşü ilə bənzərsizdir. Bu bulaq-abidənin ətrafında yaradılan çarhovuza tökülən şor suyun əhəmiyyətini bilənlər və ona ehtiyacı olanlar üçün istifadə imkanları yaradılıb. El arasında bu suya "Dəri suyu" da deyilir.

Şahbuz rayonunun hansı səmtinə, hansı kəndinə gedər olsaq, o istiqamətdə bizi salamlayan və ürəyimizi sərinlədən, dərdlərimizə dərman olan suların axdığı bulaq-abidələrlə qarşılaşarıq. Bu gün rayonda 20-yə yaxın bulaq-abidənin olması onu göstərir ki, müstəqil dövlətin vətəndaşı olmaq kimi məsuliyyətli bir missiyanı yerinə yetirən insanlar və eli arxasınca aparmağı bacaran şəxsiyyətlərimiz xalqa xidmət yolunu tutmuşlar.

*Dünyagörmüşlərimiz həmişə su çəkəni, yol salanı savab əməl sahibi adlandırıblar. Ulularımızdan qalan bu əməli davam etdirənlər xalqın yaddaşında yaşayır, yaratdıqları o abidələrdə əbədiləşirlər. Çünki xeyirxahlıq heç zaman unudulmur!*

**Şəhla NƏBİYEVA**

*Bunları bilmək faydalıdır*

# Səhər yeməyinin faydaları

***Hər kəs sağlam və gənc qalmaq istər. Sağlam həyat tərzi dedikdə səmərəli qidalanma nəzərdə tutulur. Qidalanma orqanizmi nəinki enerji ilə təchiz etməyə kömək edir, həm də orqanizmdəki bütün mühüm funksiyaların fəaliyyətinə yardımçı olur. Bu mənada qidalanma bizim fiziki orqanlarımızın fəaliyyəti üçün vacibdir. Sağlam qidalanma bütün ömrümüz boyu həyatımıza təsir edər. Sağlam qidalanmanın əsas amillərindən biri də səhər yeməyidir. Belə bir məşhur məsəl var: axşam yeməyini düşmənə ver, naharı dostla bölüş, səhər yeməyini isə mütləq özün ye! Bu el məsəli səhər yeməyinin necə vacib olduğunu bir daha göstərir.***

Beyinin normal fəaliyyəti üçün ən vacib qidalanma vaxtı hesab edilən səhər yeməyi hər kəsin qida rejimində mütləq olmalıdır. Bəzən bir çoxları səhər yeməyini vacib hesab etməyərək ona bir qədər etinasızlıqla yanaşırlar. Digərləri kökəlməkdən qorxduqlarına görə ondan imtina edirlər. Bəziləri isə, sadəcə, vaxtın yoxluğu, səhərlər iştahanın olmaması kimi xeyli "üzrlü səbəb" gətirirlər ki, nəticədə, özlərini günün başlanğıcında olduqca vacib qidadan məhrum edirlər. Həkimlər və dietoloqlar belə bir qənaətə gəliblər ki, səhər yeməyindən heç bir halda imtina edilməməlidir.

Bəs nəyə görə məhz səhər yeməyi bu qədər vacibdir? Məsələ ilə bağlı mütəxəssis rəyini öyrənmək üçün həkim Zakir Cəfərova müraciət etdik:

– Çox insan səhər yemək yeyə bilmir və ya səhər yeməyini lazımsız sayır. Səhər yeməyi yemək adəti olmayan insanlarda fikrini cəmləyə bilməmək problemi yaşanır. Gərgin bir günə başlayarkən pendir, süd, yumurta kimi tərkibində protein olan qidalardan və şirin çay, küncüdlü kömbədən ibarət səhər yeməyi daha məqsədəuyğundur. Ümumiyyətlə, səhər yeməyi üçün ən ideal vaxt oyandıqdan 1 saat sonradır. Səhər yeməyinə özünüzü öyrəşdirməyin ən asan üsulu səhər idmanıdır. Əlbəttə, idmanla məşğul olmaq vaxt tələb edir, lakin bunun əvəzində iştaha artır. Səhər-səhər qəbul edilən sağlam qida gün boyunca fiziki və zehni fəaliyyətlər üçün lazımlı enerjini təmin edir. Səhər yeməyi yemədikdə kökəlmə problemləri ilə də üzləşmək mümkündür. Səhər yeməməklə arıqlamağı nəzərdə tuturlar. İlk görünüşdən bu, məntiqli görünsə də, əslində, belə deyil. Kökəlməkdən qorxan insanlar bilməlidirlər ki, səhər yeməyindən imtina etmək nəinki bədən quruluşuna xeyirli deyil, həm də bədəndə artıq çəkinin yığılmasına səbəb olur. İş ondadır ki, insan yatarkən maddələr mübadiləsi də dayanır və səhər yeməyini yeməyənədək oyanmır. Bu səbəbdən də əgər səhər yeməyindən imtina edilərsə, orqanizm naharadək daha az kalori yandırır. Bundan əlavə, səhər yeməyi porsiyasından məhrum olmuş orqanizm özünü qoruma instinktini işə salır və nahar zamanı kaloriləri ikiqat enerji ilə toplayır. Üstəlik, naharda yaxşıca aclıq varsa, lazım olan miqdardan iki dəfə artıq yemək təhlükəsilə üzləşmək mümkündür. Gecə insan yatanda orqanizm dincəlir, amma bəzi orqanlar var ki, onlar işləyir. Bu da enerji itkisi deməkdir. İtirilmiş enerji ilə günə başlamaq düzgün deyil. Bu, günortayadək daha çox enerji itkisinə səbəb olacaq ki, nəticədə, günorta normadan daha çox enerji almağa məcburiyyət yaranacaq. Bu da arıqlama arzusunu suya düşürəcək. Keyfiyyətli səhər yeməyi zehni və fikri bir yerə toplamaq gücünü daha da gücləndirir.

Müsahibim onu da vurğuladı ki, keyfiyyətli səhər yeməyində mütləq yetərli qədər protein, lif olmalıdır ki, aclıq hissi saat 11-12-yə kimi olmasın. Bundan əlavə, səhər yeməyi beyinə diqqəti toplamaq və məlumatı yadda saxlamağa görə beyin üçün çox vacibdir. Tədqiqatlar göstərir ki, yaxşı səhər yeməyi iş qabiliyyətini, təxminən, 30 faiz artırır. Səhər yeməyinin maksimal dərəcədə faydalı olması üçün nəzərdə tutulmuş ərzaqların seçiminə diqqətlə yanaşmaq məsləhətdir. Günə bir stəkan meyvə şirəsindən və ya mineral sudan, yaxud şəkərsiz çaydan və qəhvədən başlamaq tövsiyə edilir. Maye orqanizmə yuxudan oyanmağa və həzm prosesinə başlamağa kömək edəcək. Yumurta ən yaxşı səhər yeməyidir. Səhər yumurta yedikdə uzun müddət həm fiziki, həm də intellektual fəallığı saxlamaq mümkündür. O, protein, D və B12 vitaminləri, amin turşuları və antioksidantlarla zəngindir. Bundan əlavə, səhər yeməyinin menyusunda yerli kənd təsərrüfatı məhsullarına, xüsusilə heyvandarlıq məhsullarına da üstünlük verilməlidir.

Bir sözlə, müsahibimizlə söhbətdən də aydın olur ki, səhər yeməyi gün ərzində qəbul edilən qidalar içərisində çox böyük faydası ilə seçilir. Buna görə də hər birimiz səhər yeməyindən imtina etməməli və buna zaman ayırmalıyıq. Unutmayaq ki, vaxtında və düzgün səhər yeməyi ilə qidalanmaq sağlamlığımız üçün çox vacibdir.

✍ **Sona MİRZƏYEVA**

***İtmişdir***

Naxçıvan şəhərində fəaliyyət göstərən "Şölə" Məhdud Məsuliyyətli Cəmiyyətinə aid qeydiyyat sənədləri itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 853